Ədəbiyyat qəzeti

5 dekabr/ 2020

*Əziz dostum "qahımım" (naxçıvanlılar demişkən), Kamal!*

*Ömür yolunun 70-ci dayanacağına çatmağını eşitdim, təəccübləndim, təəssüfləndim. Yaşda səndən xeyli böyük olduğumdandır ki, qocalığın nə olduğunu daha yaxşı bilirəm.*

*Rəhmətlik valideynlərin: Batulə xanım Naxçıvan ziyalılarına məxsus kübar mədəniyyəti ilə, Mehdi müəllim isə əsl qarabağlı ağayanlığı ilə yadımda qalıbdır... Hamıya əsl alim-pedaqoq nümunəsi olan dayın - unudulmaz professor Əli Sultanlı və nəhayət, həmkar dostlarımız yeznələrin, professorlar Ağamusa Axundovla Yəhya Məmmədov da həmçinin...*

*Kamal, öz aramızdır, belə əhatədə ən azı elə Sənin kimi orijinal və qüdrətli bir qələm sahibi, alim və yazıçı, ən əsası isə əsl vətəndaş ziyalı yetişməli idi!..*

*Uşaqlıqdan Sən son dərəcədə ərköyün, çılğın və həyata öz baxışı, böyük idealları, tələbləri olan bir şəxsiyyət kimi böyümüsən. Bu da Sənə yaraşır. Çünki Sən əsl vətəndaş, fədakar ziyalı ömrü yaşamısan!*

*Əzizim Kamal, elə bu cür yaşamaqla sənə azı 30 illik bir ömür də arzulayıram. Sən bugünkü Qalib Azərbaycanımıza hələ çox lazımsan!..*

*Təhsin MÜTƏLLİMOV*